# Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük uğurlar qazanacaq



***Ümummilli lider Heydər Əliyevin liderlik fəaliyyətinin əsasında xalqına, dövlətinə və Vətəninə olan sonsuz sevgi dayanırdı. O, xalqa söylədiyi hər bir sözün mahiyyətini, verdiyi vədlərin məsuliyyətini dərindən dərk edirdi. Bu siyasət nəhəngi "Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcəyəm və bütün fəaliyyətimi Azərbaycanın gələcək inkişafına sərf edəcəyəm" deyərək üzərinə götürdüyü bütün öhdəlikləri öz misilsiz müdrikliyi, dövlət rəhbəri peşəkarlığı, dahiyanə uzaqgörənliyi ilə ömrünün sonunadək şərəflə yerinə yetirdi.***

Ulu öndər həyatının son aylarında öz xalqına müstəqil Azərbaycanın təminatlı gələcəyi ilə bağlı daha bir məsul, taleyüklü müraciət ünvanlayaraq bildirmişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu müraciət Azərbaycanı bugünkü xoşbəxt günləri üçün tarixi məsuliyyətin dərindən ölçülüb-biçilmiş ifadəsi idi.

Böyük rəhbərin müstəqilliyini xilas edib dönməz prosesə çevirdiyi Azərbaycan dövlətini bugünkü qələbələrə onun müəyyən etdiyi yolla məhz Heydər Əliyev məktəbinin ən layiqli yetirməsi gətirib çıxara bilərdi. Ölkəmizin bu gün həyatın bütün sahələrində əldə etdiyi nailiyyətlər, ən əsası, Qarabağ uğrunda Vətən müharibəsində qazandığı tarixi zəfər, Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, dünyada söz sahibi olması ulu öndərin 18 il öncə tarixi seçim məqamında səsləndirdiyi müraciətin nə qədər əsaslandırılmış olduğunu, verdiyi qərarın necə uzaqgörənliklə, müdrikcəsinə qəbul edildiyini bir daha təsdiq edir.

O zaman bu mötəbər çağırışın yaratdığı yüksək etimadla Prezident seçilən İlham Əliyev ilk gündən ulu öndərin siyasi xəttini sədaqətlə və yaradıcılıqla davam etdirərək xalqının böyük hörmət və rəğbətini qazandı. Böyük rəhbərin yetirməsi və davamçısı onun özü kimi daim xalq içərisində oldu, paytaxtda və regionlarda sadə vətəndaşlarla səmimi söhbətləşərək onların arzu və istəklərini dinlədi. Möhtərəm İlham Əliyev xalqın marağından kənar heç bir addım atmadı, bütün sahələrdə xalqının mənafeyini ləyaqətlə müdafiə etdi. Qədirbilən Azərbaycan xalqı cənab Prezidentin bu diqqət və qayğısını yüksək dəyərləndirərək ona layiqli dəstək verdi, həmişə milli birlik nümayiş etdirdi. Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" şüarı tərəqqi, yüksəliş iksiri kimi xalqımızın ruhuna hopdu, həmrəyliyi daha da möhkəmləndirdi, böyük uğurlarımıza və qələbələrimizə yol açdı.

Bu gün hər bir Azərbaycan vətəndaşı böyük fəxarətlə deyə bilər ki, mən siyasi sabitliyin, əmin-amanlığın, tərəqqinin, tolerantlığın tam bərqərar olduğu, bütün sahələrdə yüksək inkişafa çatmış ölkədə yaşayıram. Görülən irimiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində Azərbaycanın siyasi, iqtisadi imkanları durmadan genişlənir, beynəlxalq nüfuzu daha da artır. Son illərdə dünyada dəfələrlə dərin iqtisadi və siyasi böhranlar baş verib, inkişaf etmiş ölkələr belə ciddi çətinliklərlə üzləşib. Lakin Prezident İlham Əliyevin düşünülmüş, böyük məharətlə gördüyü qabaqlayıcı tədbirlər sayəsində həmin böhranlar Azərbaycan sərhədlərini aşa bilməyib, ya da ölkəmiz ən az itkilərlə vəziyyətdən çıxmağı bacarıb.

Yeri gəlmişkən, bildirək ki, bütün dünyanı bürümüş, hələ də tam sovuşmamış pandemiya beynəlxalq aləmdə mürəkkəb fəsadlar törətdi, ağır sosial-iqtisadi böhrana gətirib çıxardı. Dövlətimizin başçısının iradəsi, təşəbbüsü ilə həyata keçirilən tədbirlər nəticəsində ölkəmiz bu sınaqdan güclü çıxdı. Azərbaycanın bu uğuru beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən təqdir olundu və bir nümunəyə çevrildi.

2003-cü ildən ötən dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatının dünyada rekord göstərici olaraq 3 dəfədən çox artması şəraitində sosial müdafiə və aktiv məşğulluq proqramları dəfələrlə genişlənib. Yoxsulluğun, işsizliyin kəskin şəkildə azaldılmasına nail olunub. Qəbul edilmiş sosial müdafiə və aktiv məşğulluq proqramları insanların rifah halının yaxşılaşdırılmasına yönəldilib.

Dövlət başçısının uğurlu sosial siyasətinin mərkəzində, ilk növbədə, Azərbaycan vətəndaşı dayanır. İqtisadiyyatın inkişafı və insanların sosial rifah halının yüksəldilməsi istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar, imzalanan fərman və sərəncamlar və həyata keçirilən sosial layihələr vətəndaşlarımızın yaşayış səviyyəsinə öz müsbət təsirini göstərməkdədir.

Vətəndaşların rifah halının yaxşılaşdırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi ölkə rəhbərinin uğurlu sosial-iqtisadi siyasətinin əsas istiqamətini təşkil edib. Son 3 il 11 ayda ölkədə Prezidentin imzası ilə qəbul edilən 900-dən çox normativ-hüquqi akt əhalinin sosial rifahının yaxşılaşdırılmasına xidmət edən sənədlərdir. Bu sənədlərlə həm sosial ödənişlərdə ciddi artımlar olub, həm də sosial təminat növləri üzrə ödəniş alanların sayı 160 min nəfər artaraq 2,56 milyona çatıb. 2018–2021-ci illərdə mühüm sosial islahat paketləri nəticəsində orta aylıq nominal əməkhaqqı məbləğində 40 faiz, minimum pensiyada 82 faiz, əmək pensiyalarının orta məbləğində 60 faiz artım baş verib. Sosial müavinətlərin orta məbləği 2 dəfə artıb.

Yeni sosial təminat növləri (müharibə veteranlarına, I dərəcə əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara qulluq edənlərə, Vətən müharibəsi qəhrəmanlarına və b.) təsis edilib. Minimum əməkhaqqında təqribən iki dəfə artım olub. Ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti 2018-ci ildəki 26,5 faizdən 2020-ci ildə 38 faizə yüksəlib. Bu da layiqli əməkhaqqı hədəflərinə nail olunması və həmin nisbətin Avropa Sosial Xartiyası normalarına uyğunluğunun təmin edilməsində ciddi irəliləyişdir.

Prezidentin 16 oktyabr 2021-ci il tarixli "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı sosial ödənişlərdə artım dinamikasının növbəti ildən də davam etməsinə əsas yaradır. Bu artımlar da 2 milyondan çox insanı əhatə edəcək. Yeni sərəncamlara uyğun olaraq minimum əməkhaqqı gələn ilin əvvəlindən 250 manatdan 300 manata çatdırılır, bu artım 800 min işçinin maaşının artması deməkdir. Həmçinin dövlət ümumi və peşə təhsili müəssisələrində çalışan 165 min işçinin, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda işləyən 4 min nəfərin də maaşı artırıldı. Hazırkı artım da nəzərə alındıqda minimum əməkhaqqında artım bu dövrdə 2,3 dəfə təşkil edib.

Yeni sərəncam və fərmanlar əhalinin həssas qruplarına yönələn sosial ödənişlərin artırılması istiqamətində aparılan islahatların uğurla davam etdirilməsini təmin edir. Əlilliyi olan, o cümlədən I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlər, sağlamlıq imkanları məhdud uşaqlar və onlara qulluq edənlər, yaşa görə, ailə başçısını itirməyə görə müavinət alanlar, müddətli hərbi xidmətdə olanların uşaqları və digərlərinin müavinətləri artırılır.

Fərman və sərəncamlar ümumilikdə 732 min şəxsin, o cümlədən 132 min doktorant və tələbəni əhatə etməklə sosial ödənişlərin gələn ilin əvvəlindən artırılmasını təmin edir. 2022-ci ilin 1 yanvarından yaşa görə müavinət 130 manatdan 180 manata çatdırılır. 2019-cu ilin əvvəlində bu müavinət 73 manat idi, ümumilikdə 2,5 dəfə artırılmaqla gələn ilin əvvəlindən 180 manat təşkil edəcək. Bununla da 2022-ci ildə pensiyaçılar üçün nəzərdə tutulan yaşayış minimumunu (176 manat) üstələyəcəkdir.

Azərbaycan artıq güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır və bu prinsip iqtisadi dividentlərin ilk növbədə əhalinin rifahının yaxşılaşdırılmasına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tərəfinizdən ardıcıl addımların atılması ilə də öz təsdiqini tapmaqdadır.

Xalqımız əmindir ki, əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğlərinin artırılması ilə bağlı verdiyiniz fərman və sərəncamlar ölkəmizin bundan sonra da sosial-iqtisadi inkişafına, vətəndaşlarımızın sosial rifah və həyat şəraitinin daha da yaxşılaşdırılmasına, işsizlik səviyyəsinin aşağı düşməsinə, bütün sahələrdə dinamik inkişafa geniş imkanlar açacaq və ölkəmizin iqtisadi qüdrətini daha da möhkəmləndirəcək.

Cənab İlham Əliyevin 2003-cü ildə Prezident seçilərkən xalqa verdiyi ən ali vəd isə Ermənistan işğalı altında olan torpaqlarımızın azad olunması idi. Dövlətimizin başçısı birmənalı şəkildə bəyan etmişdi ki, bizim Ermənistan tərəfinə gedə biləcəyimiz ən böyük güzəşt danışıqlar masasında əyləşib bu məsələni sülh yolu ilə həll etmək olar. Bundan başqa, hər hansı bir güzəşti bizdən gözləməsinlər, torpağımızın bir qarışını belə heç kimə verməyəcəyik. Dövlətimizin başçısı ötən illərdə baş verən prosesləri düzgün qiymətləndirərək özünün siyasi potensialı, diplomatik bacarığı ilə Ermənistanın işğalçı hakimiyyətini ifşa etdi. Azərbaycan lideri beynəlxalq və regional təşkilatların, dövlətlərin bu istiqamətdə qətnamələr qəbul etməsinə nail oldu.

Nəticədə, dünyanın mütərəqqi qüvvələri Ermənistanın apardığı təbliğatın yalan olduğunu, Azərbaycanın ədalətli mövqeyini, əsl həqiqəti anlamağa başladılar. Bu, Prezident İlham Əliyevin böyük diplomatik uğuru idi. Əldə olunan bu siyasi nailiyyət müharibənin gedişində Azərbaycana əlavə kömək oldu.

Ötən ilin payızında Vətən müharibəsi zamanı dövlətimizin başçısının böyük sərkərdəliyi altında, yenilməz Ordumuzun qüdrəti, xalqımızın sarsılmaz birliyi ilə Azərbaycan cəmi 44 günə düşmənin dizini yerə qoydu. İgid oğullarımız Ermənistan ordusunu məhv etdilər, düşmən cəbhəsində sağ qalanlar isə fərariliklə, qaçmaqla canlarını qurtardılar. Müharibənin gedişi göstərdi ki, sıravi əsgərdən tutmuş generala qədər hər bir döyüşçümüz qəhrəmandır, onlar hünərləri ilə Azərbaycanın ən böyük tarixini yazdılar, qanları, canları bahasına, heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə dik baxaraq xalqın çoxillik həsrətinə son qoydular.

Ali Baş Komandan İlham Əliyev diplomatik və sərkərdəlik məharətilə Azərbaycanın son 300 illik zəfər tarixini yenilədi. Bu müddət ərzində qələbəyə həsrət qalmış xalqın tarixinə qızıl hərflərlə "Qalib Azərbaycan" ifadəsini həkk etdirərək onu müzəffər etdi. Gələcək nəsillərə isə böyük ibrət, qəhrəmanlıq məktəbi miras qoydu.

Prezident İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində bu gün müstəqil Azərbaycan möhtəşəm, parlaq və xoşbəxt gələcəyə doğru inamla irəliləyir. Bizi qarşıda yeni-yeni uğurlar və işıqlı gələcək gözləyir. Qədirbilən xalqımız ötən günlərdə 60 illik yubileyini ümumxalq təntənəsi ilə və sonsuz rəğbətlə qeyd etdiyi sevimli Prezidenti İlham Əliyevin ətrafında daha sıx birləşərək bundan sonra da böyük uğurlar qazanacaqdır.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***